ƏDALƏT • 6 oktyabr 2005-ci il

# Tarzən Ramiz Quliyev Londondan səfərdən qayıdıb

**Xalq artisti, professor, tanınmış tarzən Ramiz Quliyev London səfərindən qayıdıb. Səfər barədə APA-ya açıqlama verən R.Quliyev bildirib ki, Londonda iştirak etdiyi konsert proqramı həmin ölkədəki səfirimiz Rəfael ibrahimovun təşəbbüsü ilə gerçəkləşdirilib. Sentyabrın 28-dən başlanan konsert proqramı üç gün davam edib.**



R.Quliyev bildirib ki, Üzeyir Hacıbəyovun 120 illik yubileyi ilə əlaqədar olaraq, ilk ifası dahi bəstəkarın əsərlərindən ibarət olub. Konsertdə pianoçu Gülnarə Teymurzadə ilə birgə çıxış edən tarzən 12 əcnəbi bəstəkarın əsərlərini də səsləndirib. Konsertdə iştirak edən Böyük Britaniya-Azərbaycan Cəmiyyətinin sədri Freyzer Karmolli tarzənin ifasını bəyənərək, onu növbəti dəfə də Londonda altı simli gitara ifaçısı ilə eyni səhnədə çıxış etməyə dəvət edib. Səfərdən yenicə qayıdan R.Quliyev bildirib ki, oğlu Əyyub Quliyev Sankt-Peterburqdakı Rimski-Korsokov adına Konservatoriyanın dirijorluq fakültəsinin aspiranturasına qəbul olunub.